# “Rayonların əksəriyyətində kitabxana yoxdur”

## AQİL ABBAS: “KƏNDLƏRDƏ KİTABXANA QALMAYIB, HAMISI BAĞLANIB”

## RAFAEL HÜSEYNOV: "KİTABXANA HƏYATI TAMAMİLƏ YENİDƏN QURULMALI VƏ ƏSASLI DƏYİŞİKLİKLƏR EDİLMƏLİDİR"





**“MÜƏLLİFLƏRİN** kitabxanalara məcburi nüsxələrinin verilməsi ilə bağlı siyasət dəyişdirilməlidir”. Bunu Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Rafael Hüseynov komitənin iclasında deyib. R.Hüseynov bildirib ki, “Kitabxana işi haqqında” qanunda kitabxanalara məcburi nüsxələrin verilməsi ilə bağlı müddəa var: “Hətta özəl nəşriyyatlar da ayrı-ayrı şəxslərin nəşr etdirdiyi kitablardan məcburi nüsxələri mütləq mərkəzi kitabxanalara verməlidirlər. Amma bununla bağlı siyasət bir qədər dəyişdirilməlidir. Çünki bəzən elə olur ki, bir insan öz hesabına 100-200 nüsxə ilə kitab çap etdirir və onun imkanı məhduddur, həmin şəxs 100-200 nüsxədən əlavə olaraq, öz hesabına da nüsxələr çap etdirirərək nəşriyyatlara verməlidir. Nəşriyyatlara da müəyyən qədər limit ayrılmalıdır ki, bu yük şəxslərin üzərinə düşməsin, özəl nəşriyyatların üzərinə düşsün. Əvəzində də onlara (müəlliflərə) məcburi nüsxələrin verilməsi əvəzinə maliyyə güzəştləri edilsin ki, onlar bu işi genişləndirə bilsin və yalnız mərkəzi deyil, rayon, şəhər kitabxanalarına həmin kitablardan göndərsinlər”.

Komitə sədri qeyd edib ki, ölkənin kitabxana həyatı tamamilə yenidən qurulmalı və burada əsaslı dəyişikliklər edilməlidir: “Çünki kitabsız, bilik qaynağı olmadan bu cəmiyyətin inkişafından danışmaq olmaz. Prezident İlham Əliyevin bu günlərdə imzaladığı sərəncamla köhnə kitabxana sisteminin ləğv edilərək yeni kitabxana sisteminin qurulması elə bu istəkdən irəli gəlir”.

Deputat Aqil Abbas isə deyib: “Kitabxana məsələsi hər zaman məni düşündürür. Kəndlərdə kitabxana qalmayıb, hamısı bağlanıb. Kitablar da hara atılıb bilinmir. Nə var ki, orada işləyənlərə 120 manat maaş verilirdi...”

A.Abbas kitabxanalara diqqətsizliyə görə narahatlığını ifadə edib: “Elektron kitabxanaya kimdir gedən? Elə evdə internetdə oxuyar da... İnsan kitabı sinəsinin üstündə oxumaq istəyir. Dövlətin çap etdirdiyi kitablar kitabxanaya çatdırılır, amma özümüzün çap etdirdiyimiz kitablar kitabxanalarda olmur. Mən özüm rayona gedəndə kitablar alıb aparıram ki, bu kitablar da kitabxanada olsun, bəlkə kimsə oxumaq istəyir... Ad çəkmək istəmirəm, küsürlər, rayonların əksəriyyətində kitabxana yoxdur. Bu sahə canlandırılmalıdır”.

***Fidan***